# ISO 45001:2018 PEŞƏ SAĞLAMLIĞI VƏ TƏHLÜKƏSİZLİYİNİ İDARƏETMƏ SİSTEMİ

## TƏLƏBLƏR VƏ ONLARIN TƏTBİQİNƏ DAİR TƏLİMAT

rmp

Risk Management Professionals

# ISO 45001:2018
## Peşə sağlamlığı və təhlükəsizliyini idarəetmə sistemi

## tələblər və onların tətbiqinə dair təlimat

**ISO 45001:2018**
**Peşə sağlamlığı və təhlükəsizliyini idarəetmə sistemi**
**tələblər və onların tətbiqinə dair təlimat**
Bakı, Qanun nəşriyyatı, 2019, 80 səh.

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0225

© QANUN nəşriyyatı, 2019

## britaniya standartı

### 1. əhatə sahəsi

Bu sənəddə təşkilatlara peşə ilə bağlı xəsarətlərin və sağlamlığın itirilməsinin qarşısını almaqla, həmçinin PS&T ilə bağlı fəaliyyətlərini inkişaf etdirməklə təhlükəsiz və sağlam iş şəraiti təmin etməyə imkan vermək məqsədilə peşə sağlamlığı və təhlükəsizliyini idarəetmə sistemi üzrə tələblər müəyyən edilir və həmin sistemin tətbiqinə dair təlimatlar verilir.

Bu sənəd peşə sağlamlığı və təhlükəsizliyini inkişaf etdirmək, təhlükələri aradan qaldırmaq, PS&T üzrə riskləri (o cümlədən sistemdəki çatışmazlıqları) azaltmaq, PS&T üzrə imkanlardan yararlanmaq və öz fəaliyyəti ilə bağlı PS&T idarəetmə sistemindəki uyğunsuzluqlara reaksiya vermək üçün PS&T idarəetmə sistemini yaratmaq, tətbiq etmək və işlək halda saxlamaq istəyən hər hansı təşkilatda istifadə oluna bilər.

Bu sənəd təşkilata özünün PS&T idarəetmə sistemində nəzərdə tutulmuş nəticələrə nail olmağa kömək edir. PS&T sahəsində təşkilatın siyasətinə uyğun olaraq, PS&T idarəetmə sisteminin nəzərdə tutulmuş nəticələri aşağıdakılardır:

1. PS&T sahəsində fəaliyyətin davamlı olaraq inkişaf etdirilməsi;
2. Hüquqi tələblərin və digər tələblərin yerinə yetirilməsi;
3. PS&T üzrə məqsədlərə nail olunması.

Bu sənəd ölçüsü, növü və fəaliyyət sahəsindən asılı olmayaraq hər hansı təşkilatda tətbiq edilə bilər. Onu təşkilatın fəaliyyət göstərdiyi kontekst (şərait), öz işçilərinin və digər maraqlı tərəflərin ehtiyac və gözləntiləri kimi amilləri nəzərə almaqla təşkilatın nəzarəti altında olan PS&T üzrə risklərə tətbiq etmək olar.

Bu sənəddə PS&T sahəsində fəaliyyətin göstəriciləri üçün konkret meyarlar qoyulmur və PS&T idarəetmə sisteminin strukturu barədə heç bir göstəriş yoxdur.
Bu sənəd təşkilata PS&T idarəetmə sistemi vasitəsi ilə işçilərin sağlam həyat tərzinin və rifahının təmin olunması kimi sağlamlıq və təhlükəsizliyin digər aspektlərini nəzərə alıb bura daxil etməyə imkan verir.
Bu sənəddə, işçilər və digər müvafiq maraqlı tərəflər üçün risklərin olduğu hallar istisna olmaqla, məhsulun təhlükəsizliyi, maddi ziyan və ətraf mühitə təsirlər kimi məsələlərə toxunulmur.
Bu sənəd peşə sağlamlığı və təhlükəsizliyinin idarə olunmasını sistemli şəkildə inkişaf etdirmək (təkmilləşdirmək) məqsədilə tam və ya qismən istifadə edilə bilər. Lakin bu sənədin bütün tələbləri təşkilatın PS&T idarəetmə sisteminə daxil edilərək istisnasız olaraq yerinə yetirilmirsə bu sənədə uyğunluq iddiaları qəbul olunmur.

**2. normativ istinadlar**
Bu sənəddə heç bir normativ istinad yoxdur.

**3. termin və təriflər**
Bu sənədin məqsədləri üçün aşağıdakı termin və təriflər tətbiq olunur.
Standartlaşdırma zamanı istifadə olunması üçün İSO və İEC aşağıdakı ünvanlarda terminoloji məlumat bazaları saxlayır:
— ISO Online browsing platform: **https://www.iso.org/obp**
— IEC Electropedia: **http://www.electropedia.org/**

**3.1. təşkilat (organization)**
Məqsədlərinə (**3.16**) nail olmaq üçün məsuliyyət, səlahiyyət və əlaqələri ilə öz funksiyalarına malik olan şəxs və ya bir qrup insan.
**qeyd**: Təşkilat anlayışı özündə aşağıdakıları ehtiva edir, ancaq bun larla məhdudlaşmır: hüquqi şəxs olub-olmamasından, dövlət və ya özəl olmasından asılı olmayaraq, fərdi sahibkar, şirkət, korpo ra si ya, firma, müəssisə, hökumət orqanı, cəmiyyət, xeyriyyə qurumu və ya təsisat və ya onların bir hissəsi və ya onların birliyi.
**qeyd:** Bu termin Annex SL of the Consolidate ISO Supplement to the ISO/IEC Directives, Part 1-də ve rilmiş İSO idarəetmə sisteminin standartları üzrə ümumi terminlərdən və əsas təriflərdən biridir.

**3.2. maraqlı tərəf (ınterested party) [üstünlük verilən termin]**
**Pay sahibi (maraqlı tərəf) (stakeholder) [qəbul olunan ter min]**
Müəyyən qərar və ya fəaliyyətin təsirinə məruz qalan və ya özü nün belə təsirə məruz qalmasını ehtimal edərək həmin qərar və ya fəa liyyətə təsir göstərə bilən şəxs və ya təşkilat (**3.1**)
**qeyd:** Bu termin Annex SL of the Consolidate ISO Supplement to the ISO/IEC Directives, Part 1-də verilmiş İSO idarəetmə sisteminin standartları üzrə ümumi terminlərdən və əsas təriflərdən biridir.

**3.3. işçi (Worker) təşkilatın (3.1) nəzarəti altında olan işi və ya işlə bağlı fəaliyyətləri icra edən şəxs**
**qeyd:** Şəxslər pulla və ya pulsuz, müxtəlif şərtlər altında, məsələn daimi və ya müvəqqəti, il ərzində və mövsümi, hərdən bir və ya ya rım ştat olaraq iş və ya işlə bağlı fəaliyyətləri icra edirlər.
**qeyd:** İşçilər yuxarı rəhbərlik (**3.12**), rəhbər və qeyri-rəhbər şəxs lərdən ibarətdir.